**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

**ƏMR**

**18 mart 2025-ci il** **10-1/3-1-39/2025**

# Aparılmış auditin nəticəsinin keyfiyyətsiz hesab edilməsinə və Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilməməsinə görə Auditorlar Palatasının üzvü barəsində intizam və tənbeh tədbirlərinin görülməsinə dair

Azərbaycan Respublikasının Prokurorluğu Bakı şəhəri Xətai rayon prokurorluğunun 2025-ci il 14 fevral tarixli 2-2/311/3-021724/2025 nömrəli məktubuna əsasən aparılmış araşdırmanın nəticəsində (əlavə olunur) Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, "Caspian Consulting and Partners" MMC-nin direktor-auditoru Abdinova Elnurə Tofiq qızı tərəfindən Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilmədən "Aztur Travel" MMC-yə 2024-cü il 26 sentyabr tarixli auditor rəyi verildiyinə görə həmin auditor barəsində intizam və tənbeh tədbirlərinin görülməsi məqsədilə **əmr edirəm:**

1. Araşdırmanın nəticəsi olaraq "Caspian Consulting and Partners" MMC-nin direktor-auditoru Abdinova Elnurə Tofiq qızı tərəfindən "Aztur Travel" MMC-yə verilmiş 2024-cü il 26 sentyabr tarixli auditor rəyi keyfiyyətsiz hesab edilsin.
2. Beynəlxalq Audit Standartlarının tələblərinə riayət edilmədən "Aztur Travel" MMC-yə 2024-cü il 26 sentyabr tarixli auditor rəyi verildiyinə görə Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin 6-cı "Töhmət tənbehi" maddəsinin 16-cı "Peşə mənsubları/üzvləri tərəfindən bilmədən, lazımi diqqət və səy göstərmədən qanunlara, qaydalara və bəyan edilmiş norma və standartlara zidd olan hesabatların və rəylərin imzalanması, yoxlanılması və təsdiq edilməsi" bəndinə əsasən "Caspian Consulting and Partners" MMC-nin direktor-auditoru Abdinova Elnurə Tofiq qızına şəxsi işinə qeyd edilməklə töhmət elan edilsin.
3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bu əmrdən irəli gələn məsələləri həll etsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bu əmrin mətninin qeyd edilən auditora göndərilməsini təmin etsin.
5. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədr müavini** **Fəxrəddin İsmayılov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Fəxrəddin İsmayılov / Rəhbərlik / Sədrin müavini

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/4Em11CB5DLiKHNNHUIPpKdUReLMr%2Fft%2FWjJyJT10Kv4%3D